***Payızın ömrünü qışa təslim etdiyi gün Yevlaxdan Bakıya qayıdırdım. Yolboyu qəzet üçün hazırlayacağım yazını rayonun Balçılı kəndində yeni salınan parkda bir ağsaqqalın əyləşdiyi oturacaqda əlindəki əsanı yerə döyəcləyə-döyəcləyə söylədiyi sözlərlə başlayacağım, Vətən müharibəsindən ötən bir ildə qələbə ovqatının adamların çöhrəsinə çökməsini qeyd edəcəyim barədə götür-qoy edirdim. Burada abadlıq, səliqə-sahman işlərinin miqyasının getdikcə genişlənməsi ilə bağlı həyata keçirilən tədbirləri də bu fonda verməyi qərarlaşdırırdım. Ağsaqqalın Balçılı kəndinin bugünkü növrağı haqqında dediklərinin isə bütün Azərbaycan barədə aydın təsəvvür yaratdığını yaxşı bilirdim: "Müəllim, Prezidentimiz İlham Əliyev ölkəyə rəhbəlik etdiyi ötən 18 ildə Azərbaycan hər ay, hər il cavanlaşıb, gəncləşib. Yol-yolağalar, şəhər-kəndlər abadlaşıb, adamların rifahı yaxşılaşıb. Amma, sözün düzü, qəddimizi əyən Qarabağ nisgili bu uğurlardan qədərincə sevinməyə, bu ölkənin güc-qüdrətindən qədərincə fərəhlənməyə o qədər də imkan verməyib. Torpağı yağı tapdağında inildəyən bir dövlətin övladının dik, qürurlu dayanıb bu inkişafdan, abadlıqdan, rifahdan danışması, söhbət açması, açığı, çox çətin olub... İndi Allaha şükür ki, Ali Baş Komandanımızın müdrikliyi, qətiyyəti və oğullarımızın qəhrəmanlığı, igidliyi ilə torpaqlarımız yağıdan geri alınıb. Son bir ildə hər rayonda, hər kənddə görülən işlər də bu qələbə ruhunda gerçəkləşib. Bax, bunu indi gözəlliyi ilə diqqətçəkən bu parkın tikintisində çalışan fəhlələrin işinə kənardan baxanda da onların ruhunun yeniləndiyini, əl-qollarının, necə deyərlər, açıldığını, hansı şövqlə, hansı həvəslə işlədiklərini görürdüm...".***

# Yevlax bu gün...



...Ağsaqqalın dövrün-zamanın gərdişindən açdığı söhbətin sonunda adını quruculuq-yaradıcılıq ünvanlarından biri kimi vurğuladığı zövqlə qurulan o Balçılı parkı yuxarıda xatırlatdığım kimi rayon mərkəzində deyil, kənddə, özü də "Hər kənddə bir park" layihəsi çərçivəsində salınıb. Fikir verirsinizmi layihənin adına?!. "Hər kənddə bir park", yəni bundan sonra bu cür istirahət məkanlarının həm də bir vaxtlar gözdən uzaq, könüldən iraq düşən kəndlərdə inşa olunması nəzərdə tutulub. Bu isə əslində, şəhərlə kəndin arasındakı təzadın, fərqliliyin aradan qaldırılmasına, kiçik yaşayış məntəqəsində də üzü ağ, əli qabarlı adamların dincliyi, rahatlığı üçün ürəkaçan şəraitin yaradılmasına, ən əsası isə gənclərin doğma yurda qəlbən bağlanmalarına, asudə vaxtlarını səmərəli, xoş keçirmələrinə hesablanıb. Yarım hektar ərazidə inşa olunan parkda yaşıllıqlar salınması, istirahət məkanının gecə işıqlanması sistemi ilə təmin olunması, oturacaqların qoyulması, uşaqlar üçün oyun, gənclər üçün idman qurğularının quraşdırılması da bayaq sadalanan həmin məqsədlərin həllinə yönəlib. Burada Birinci və İkinci Qarabağ müharibəsi şəhidləri Yaqub Nəbiyev və Mikayıl Əlibəylinin xatirələrini əbədiləşdirən bulaq isə şəhadətə ucalan bütün oğullarımızın hec zaman unudulmayacaqları, qəlblərdə, ürəklərdə əbədi yaşayacaqları qənaəti ilə tikilib.

Yeri gəlmişkən, parkda 1300 nəfərədək sakini olan Balçılı kəndi ilə yanaşı, yaxınlıqdakı Salahlı, Ağqıraq və Varvara kəndlərinin sakinləri də asudə vaxtlarını səmərəli keçirəcəklər.

Rayonda olarkən, diqqətçəkən bir məqam da Birinci və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksələn qəhrəman övladlarımızın respublikamızın hər yerində olduğu kimi, burada da xatirələrinin əziz tutulması, adlarının əbədiləşdirilməsi- xatirə kompleksləri, bulaqlar inşa edilməsi, yaşıllıq zolaqları salınması, daim anılmaları, doğmalarının qayğı ilə əhatələnməsi oldu.

Belə bir diqqət mərd, cəsur igidlərimizə olan sevgi, məhəbbətlə bərabər, onların nümunəsində gənc nəsli tərbiyə etmək, torpağa, yurda dərin bağlılıqla yetişdirməkdir. Şəhidlərimizə ehtiram bəslənilməsi, həm də Vətənə sədaqət deməkdir. Bunu əbədiyyətə qovuşan qəhrəmanlarımızın Yevlaxda uyuduqları Şəhidlər xiyabanına münasibət də aydın göstərir. Doğma el-obaya sədaqətləri, mərdlikləri və mətinlikləri ilə ürəklərdə, düşüncələrdə yaşayan yevlaxlı şəhidlərin əbədiyyət məskəni olan bu xiyabanı indi hamı müqəddəs ünvan kimi tanıyır.



Yevlaxda son vaxtlar həyata keçirilən tikinti-quruculuq, abadlıq tədbirlərinin miqyasının daha da genişlənməsi, görülən işlərin keyfiyyətinin isə yüksəlməsi xüsusi diqqət çəkir. Bu isə təbii ki, rayon rəhbərliyinin tələbkar və təşəbbüskar olmasından irəli gəlir. Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Anar Tağıyevin gənc olmasına baxmayaraq, fəaliyyətində dövrün çağırışları ilə səsləşən idarəetmə prinsipləri özünü daha qabarıq büruzə verir. Bu vəzifəyə təyin edilənədək çalışdığı mühüm işlərdə əldə etdiyi təcrübə də burada köməyinə gəlir. Ən başlıcası isə Prezident İlham Əliyev tərəfindən bütün yeni kadrlar kimi, onun da qarşısına qoyulan konkret vəzifələrlə, verdiyi dəyərli tapşırıq və tövsiyələrlə bağlı atılan addımlar daha çox nəzərə çarpır.

Ümumiyyətlə, icra hakimiyyəti başçısı Yevlaxda rəhbərliyə başladığı ilk gündən xalqa ləyaqətlə xidmət etməyi, göstərilən etimadı doğrultmağı, respublikada həyata keçirilən sosial-iqtisadi islahatlara, əhalinin rifahının daha yaxşılaşmasına öz töhfəsini verməyi, qanunun aliliyinin təmin olunmasını diqqətdə saxlamağı, vətəndaşların problemlərinə daim həssaslıqla yanaşmağı, insanların üzləşdikləri müəyyən çətinliklərin aradan qaldırılmasında yardımçı olmağı fəaliyyətində prioritet istiqamət kimi qəbul edib.

Bütün bunlar Yevlaxda aparılan genişmiqyaslı abadlıq- quruculuq işlərinin fonunda aydın nəzərə çarpır. Fikrimin təsdiqi olaraq indi diqqətə çatdıracağım tədbirlər də bunun bariz ifadəsidir. Belə ki, şəhərin mərkəzində yerləşən Dədə Qorqud parkı yenidən qurulub, ərazisi 0,3 hektardan 1,95 hektara çatdırılıb. Burada Dədə Qorqudun heykəli ucaldılıb, 6200 metr səki daşları düzülüb, 5990 kvadratmetr tamet daşları döşənib, 11550 kvadratmetr yaşıllıq sahəsi salınıb. Parkda müasir tipli 77 ədəd işıqlandırma dirəyi quraşdırılıb. Parkın ətrafında yerləşən 9 beşmərtəbəli, 3 ikimərtəbəli yaşayış binalarının fasadları müasir qaydada üzlənilib, digər 5 mərtəbəli yaşayış binasının isə dam örtüyü metal-kirəmitlə yenilənib.



Parkda sadalanan işlərlə bərabər, xidmət obyektlərinin fasadlarının müasirləşdirilməsi, ətraflarının abadlaşdırılması, çox sayda dekorativ ağacların əkilməsi, uşaqların əylənməsi üçün müxtəlif qurğuların quraşdırılması da unudulmayıb.

Parkın mərkəzində tikilən bulaq kompleksinə artezian quyusundan daimi su xətti çəkilib. Kamil Sabitov, Qanboy Quliyev, Şadlinski, Qarxunlu Əşrəfbəy, M.Ə.Rəsulzadə, Azərbaycan küçələrinə asfalt örtük salınıb. Hazırda isə Cəfər Cabbarlı və Vidadi küçələrində də bu işlərə başlanılıb.

Yevlax şəhərində abadlıq-quruculuq işləri çərçivəsində, həyətlərin abadlaşdırılmasına, daşlarla döşənməsinə, asfaltlanmasına, yaşıllıqların salınmasına, uşaqlar üçün müxtəlif qurğular və idman meydançaları quraşdırılmasına, küçə və prospektlərdə, şəhərin daxilindən keçən Bakı-Ələt-Qazax avtomobil yolunda işıqlandırma sistemlərinin qurulmasına xüsusi əhəmiyyət verilib. Bu ərazilərdəki yaşayış binalarında nəzərə çarpan problemlər aradan qaldırılıb, dam örtükləri əsaslı təmir olunub.

Rayon mərkəzində ümumi sahəsi 3 min kvadratmetr olan uşaq əyləncə mərkəzinin tamamilə yenidən qurulması, Nizami parkında əsaslı təmir işlərinin aparılması, park və meydanlarda fəvvarələrin təmir olunaraq işə salınması, yaşıllıq ərazilərin artırılması da son vaxtlar görülən işlər sırasında xüsusi diqqət çəkir.





Yevlaxda həyata keçirilən abadlıq-quruculuq tədbirləri körpələr evi-uşaq bağçalarının əsaslı təmirində, barak tipli evlərin yeni yaşayış binaları ilə əvəzlənməsində və Şəhidlər xiyabanına daim qulluq göstərilməsində də özünü qabarıq büruzə verir.

Rayonda abadlıq-quruculuq tədbirlərinin kəndlərdə də gerçəkləşməsi daim diqqət mərkəzində saxlanılır. Son vaxtlar Xaldan-Zaqatala, Xaldan-Ərəş-Meyvəli, Qaroğlan, Quşçu, Malbinəsi və Qoyunbinəsi avtomobil yollarının əsaslı təmir olunaraq asfaltlanması, Xaldan magistralı və İncə çayı üzərində körpülərin salınması, yaşayış məntəqələrinin təbii qazla təmin olunması, elektrik təsərrüfatının yenidən qurulması, yeni məktəb binalarının inşası, köhnələrinin cari və ya əsaslı təmir edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması istiqamətində bir sıra layihələrin reallaşdırılması deyilən fikrin təsdiqidir.

* * *

Artıq işğal altındakı torpaqlarımızın azad edildiyi, Qarabağın ağ günlərə qovuşduğu, 30 illik həsrətin bitdiyi vaxtdan ötən bir ildə bütün Azərbaycan, eləcə də Yevlax tarixi qələbəmizin qüruru ilə yaşayır. Daha kimsənin bağrı yarılan, sinəsinə min dağ çəkilən Qarabağın yağı tapdağında qaldığını gözləri önünə gətirib "əli işdən, ürəyi arzudan soyumur". İndi hamı daha şövqlə, daha həvəslə qalib ölkənin qalib vətəndaşı olaraq kəndinin, şəhərinin gözəlləşməsinə, qüdrətlənməsinə öz töhfəsini verir. Bu əzm, bu qürur sayəsində indi Azərbaycan əvvəlkindən də çox sürətlə inkişaf edir, güclənir. Yevlaxlılar da bu tikinti-quruculuq işlərində öz töhfələrini əsirgəmir. Rayonda görüb, qələmə aldığım qeydlər də bunu təsdiqləyir.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***